*Azərbaycan Respublikasının Qeyri-HökumətTəşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının 03 dekabr 2021- ci il tarixli17(17) nömrəli İclas Qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsinin müvəqqəti**

**QAYDASI**

## 1. Ümumi müddəalar

1.1. “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin keçirilməsinin müvəqqəti Qaydası” (bundan sonra - Qayda) Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 8.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının Qeyri- Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin (bundan sonra – Agentlik) Nizamnaməsi əsasında hazırlanmış, dövlət büdcəsindən ayrılmış, habelə qanunla qadağan olunmayan digər mənbələrdən daxil olan vəsait hesabına Agentlik tərəfindən qeyri-hökumət təşkilatlarının (bundan sonra – QHT) dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair irəli sürdükləri təşəbbüslərinin, proqram və layihələrinin (bundan sonra – layihə) maliyyələşməsi üzrə qrant müsabiqələrin təşkili və keçirilməsi(bundan sonra – müsabiqə) qaydasını müəyyən edir.

1.2. Müsabiqə mövzularının müəyyən edilməsi və nəticələri ilə bağlı qərar Agentliyin Müşahidə Şurası (bundan sonra – Müşahidə Şurası) tərəfindən qəbul edilir. Müsabiqənin keçirilməsi müddəti (başlama və bitmə tarixi) ilə bağlı qərar Agentliyin İcraçı direktoru tərəfindən qəbul edilir.

1.3. Müsabiqənin keçirilməsi barədə elan və onların nəticələri haqqında məlumatlar Müşahidə Şurası tərəfindən təsdiq olunduqdan sonra Agentliyin rəsmi internet saytında, sosial mediya hesablarında yerləşdirilir və bu barədə kütləvi informasiya vasitələri ilə ictimaiyyətə məlumat verilir.

1.4. Qrant müsabiqəsi şəffaflıq, obyektivlik, səmərəlilik, nəticəlilik və bərabərlik prinsiplərinə riayət olunmaqla keçirilir.

## 2.Qrant maliyyələşdirilməsi ilə bağlı ümumi məsələlər

2.1. Qrant müsabiqəsində Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, bu Qayda ilə müəyyən edilmiş tələblərə cavab verən QHT-lər iştirak etmək hüququna malikdirlər.

2.2. Agentlik tərəfindən müsabiqələr təqvim ili ərzində digər qurumlarla birlikdə də keçirilə bilər.

2.3. Agentlik tərəfindən müsabiqələr "Kiçik qrant müsabiqəsi", "Orta qrant müsabiqəsi","Böyük qrant müsabiqəsi", "İnstitusional dəstək müsabiqəsi" və "Səfər qrantları" mövzuları üzrə keçirilir. Agentlik tərəfindən, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş Tədbirlər Planı, eləcə də dövlət proqramları və milli fəaliyyət planlarına, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarına uyğun olaraq həyata keçirilməsi Agentliyə həvalə olunmuş tədbirlərin icrası məqsədilə ayrı-ayrı istiqamətlər və mövzular üzrə müsabiqələr keçirə bilər.

2.4. QHT təqvim ili ərzində Agentlikdən yalnız 1 (bir) dəfə qrant ala bilər.

2.5. QHT müsabiqəyə tərəfdaş QHT-lərlə birlikdə və koalisiya şəkilində layihə təklifi təqdim edə bilər.

2.6. Xarici QHT-lər qanunvericiliklə müəyyən edilmiş qaydada Agentlik tərəfindən keçirilən qrant müsabiqələrində iştirak edə bilərlər.

2.7. Müsabiqəyə təqdim olunmuş layihələrin icra müddəti maksimum 12 (on iki ) aydır. Bu müddət Müşahidə Şurasının qərarı ilə azaldıla və ya artırıla blər.

2.8. Digər qurumlar tərəfindən tam maliyyələşdirilmiş və icrası davam edən layihələr Agentlik tərəfindən maliyyələşdirilə bilməz.

2.9. Layihələrə ayrılmış maliyyə vəsaiti layihə məqsədləri və vəzifələrinə uyğun istifadə olunmalıdır. Siyasi, kommersiya, idman və dini fəaliyyəti nəzərdə tutan layihələr Agentlik tərəfindən maliyyələşdirilmir.

## 3.Müsabiqənin elanı və müsabiqədə iştirak

3.1. Müsabiqənin keçirilməsi haqqında elan Agentlik tərəfindən onun rəsmi internet səhifəsində və digər açıq informasiya resurslarında yayılır.

3.2. Müsabiqənin keçirilməsi haqqında elanda aşağıdakı məlumatlar olur:

3.2.1. Bu Qaydanın 3.5-ci bəndində göstərilmiş sənədlərin siyahısı;

3.2.2. müsabiqənin keçirildiyi istiqamətlər;

3.2.3. müsabiqənin başlanılması və bitməsi tarixi;

3.2.4. Əlaqə vasitələri;

3.3. Müsabiqənin keçirilməsi müddəti 2 (iki) təqvim ayından artıq ola bilməz.

3.4. Müsabiqə elanında göstərilən son tarixdə layihələrin qəbul edilməsi dayandırılır.

3.5. Müsabiqədə iştirak üçün Agentliyin elektron xidmətində layihə müraciət ərizəsi onlaynrejimdə doldurulduqdan sonra, aşağıda qeyd edilmiş sənədlər həmin xidmətə elektron qaydada yüklənir və ya Agentliyin müəyyən etdiyi qaydada Müsabiqə elanında göstərilmiş e-mail ilə göndərilir.

3.5.1. Müşahidə Şurasının təsdiq etdiyi formada layihə təklifi;

3.5.2. Müşahidə Şurasının təsdiq etdiyi formada layihənin icra planı;

3.5.3. Müşahidə Şurasının təsdiq etdiyi formada layihənin xərclər smetası;

3.5.4.QHT-nin hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti; 3.5.5.QHT-nin vergi uçotu haqqında şəhadətnaməsinin (VÖEN) surəti; 3.5.6.QHT sədrinin şəxsiyyət vəsiqəsinin surəti;

3.5.7.QHT-nin müvafiq bank rekvizitləri;

3.6.Müsabiqəyə təqdim edilən layihələr Azərbaycan dilində tərtib edilməlidir.

3.7.Məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, Agentliyin Nizamnaməsi və bu Qayda ilə ziddiyyət təşkil edən layihələr müsabiqəyə buraxılmır.

3.8.Agentlik tərəfindən maliyyələşdirilən və icrası başa çatmayan layihələri həyata keçirən QHT-lər, habelə Agentliklə bağlanan qrant müqaviləsi üzrə öhdəliklərini icra etməyən QHT-lər müsabiqəyə buraxılmır.

3.9.Agentlik müsabiqə şərtləri, layihələrin tərtibatı, tələb olunan sənədlər və Agentliyin elektron xidmətindən istifadə ilə bağlı yaranan sualların cavablandırılması, məsləhətlərin verilməsi və təlimatların hazırlanması üzrə işləri təşkil edir.

3.10. Elan müddəti ərzində müsabiqəyə təqdim olunan bütün layihələr Agentlik tərəfindən qeydiyyata alınır və bu barədə müraciət edən QHT-yə Agentliyin elektron xidməti və ya e-maili vasitəsilə məlumat verilir.

3.11.QHT müsabiqəyə təqdim etdiyi sənədlərə düzəlişlər edə bilməz.

## 4.Layihələrin ekspertizası və qiymətləndirilməsi

4.1.Müsabiqəyə təqdim olunan bütün layihələr ekspertizadan keçirilir. Ekspertizanın əsas məqsədi müsabiqəyə təqdim olunmuş layihələrin məzmununun və onların yerinə yetirilməsi imkanlarının qiymətləndirilməsindən və maliyyələşdirilməsinin məqsədə uyğunluğunun müəyyən edilməsindən ibarətdir.

4.2.Müsabiqəyə təqdim olunan layihələr qeydiyyata alındığı gündən etibarən 30 (otuz) gün müddətində ekspertizadan keçirilir və Müşahidə Şurasının qərarı ilə təsdiq olunmuşmüsabiqənin nəticələri barədə məlumat Agentliyin rəsmi internet saytı və kütləvi informasiya vasitələri ilə ictimaiyyətə elan edilir.

4.3.Müsabiqəyə təqdim olunmuş layihələrin ekspertizası iki mərhələdə həyata keçirilir:

4.3.1.layihələrin texniki ekspertizası;

4.3.2.layihələrin yekun qiymətləndirilməsi, müvafiq rəyin verilməsi və Müşahidə Şurasıtərəfindən qərarın qəbul edilməsi.

4.4. Layihələrin qiymətləndirilməsi Agentlik tərəfindən cəlb olunmuş ekspertlər tərəfindənhəyata keçirilir.

4.5. Texniki ekspertiza zamanı aşağıdakı məsələlər həll olunur:

4.5.1. müsabiqəyə təqdim olunmuş layihələr mövzular üzrə qruplaşdırılır;

4.5.2. müsabiqəyə təqdim edilmiş layihələrin və əlavə olunmuş sənədlərin bu Qaydanın3.5.-ci bəndinə və Müşahidə Şurasının təsdiq etdiyi mövzulara uyğunluğu müəyyən edilir;

4.5.3. əvvəllər Agentlik tərəfindən dəstəklənən, təkrar təqdim olunan və digər layihələrəoxşar təqdim olunmuş layihələr müəyyən edilir;

4.5.4. QHT-nin Agentliyin maliyyə dəstəyi ilə əvvəl icra etdiyi layihələrin icra vəziyyəti araşdırılır;

4.5.5. QHT-nin və təqdim etdiyi layihə təklifinin bu Qaydanın 2.9-cu, 3.7-ci və -3.8.-ci bəndlərinə uyğunluğu yoxlanılır;

4.6. Layihələrin qiymətləndirilməsi zamanı aşağıdakı meyarlar nəzərə alınır:

4.6.1. Layihə mövzusunun QHT-nin nizamnamə məqsədlərinə uyğunluğu;

4.6.2. layihənin ideyasının düzgün əsaslandırılması;

4.6.3. layihənin məqsəd və vəzifələrinin aydınlığı;

4.6.4. layihənin mövzusunun aktuallığı;

4.6.5. layihənin innovativliyi;

4.6.6. layihənin dayanıqlı olaraq inkişaf etdirilməsi imkanları və davamlılığı;

4.6.7. layihənin smeta xərcinin layihənin həyata keçirilməsi üçün tələb olunan vəsaitə vəicra olunacaq fəaliyyətə uyğun olaraq hazırlanması,

4.6.8. maliyyə bölgüsünün məntiqli və inandırıcı olması;

4.6.9. QHT-nin və layihə icraçısının müvafiq layihə mövzusunda uyğun təcrübəsi;

4.6.10. layihə üzrə risklərin təhlili;

4.6.11. layihə üzrə benefisiarların düzgün müəyyən edilməsi;

4.6.12. layihə nəticələrinin aydınlığı, onların layihənin əsas məqsədinə çatmağaxidmət etdiklərini göstərməsi;

4.6.13. layihənin icrası zamanı müvafiq tərəfdaşlarla əməkdaşlıq.

4.7. Bu Qaydanın 4.4-cü yarımbəndində nəzərdə tutulmuş ekspertizanın nəticələri ilə bağlı hər bir layihəyə dair rəy yazılır və arayış hazırlanır. Arayış Agentliyin İcraçı direktorunun təqdimatı ilə Müşahidə Şurasına təqdim edilir.

4.8. Müsabiqəyə təqdim olunmuş layihələrin ekspertizasının üçüncü mərhələsində Müşahidə Şurası bu Qaydanın 4.7-ci bəndində göstərilən arayışı nəzərə almaqla aşağıdakı tədbirləri görür:

4.8.1. layihələri müzakirə edir, onların bu Qaydaya uyğunluğunu, dövlət və cəmiyyət üçün əhəmiyyətini, aktuallığını, ictimai faydalılığını, səmərəli və real olmasını, habelə nəticəlilik və davamlılıq amillərini qiymətləndirir;

4.8.2. layihələrin smeta xərclərinin fəaliyyətlərə uyğunluğuna baxır;

4.8.3. hər bir layihə üzrə qrantın verilməsi və ya verilməsindən imtina edilməsi barədə sadə səs çoxluğu ilə əsaslandırılmış qərar qəbul edir.

4.9.Qrant verilməsi barədə qərarda qrant alan haqqında məlumatlar, qrant layihəsinin adı, layihənin məbləği və icra müddəti göstərilir.

4.10.Müşahidə Şurası aşağıdakı hallarda qrant verilməsindən imtina edilməsi barədə qərar qəbul edir:

4.10.1. müsabiqəyə təqdim edilmiş layihə bu Qaydaya uyğun olaraq tərtibedilmədikdə;

4.10.2. müsabiqəyə təqdim edilmiş layihə bu Qaydanın 4.8.1.-ci və yarımbəndlərinə uyğun olaraq aparılan qiymətləndirmə nəticəsində qənaətbəxş hesab edilmədikdə;

4.10.3. müsabiqəyə təqdim edilmiş layihənin smeta xərclərinin əsaslandırılması qənaətbəxş hesab edilmədikdə.

4.11. Qrantın verilməsinə və ya qrantın verilməsindən imtina edilməsinə dair qərar barədə məlumat QHT-yə Agentliyin elektron xidməti və ya elektron poçt vasitəsilə çatdırılır.

5.Yekun müddəalar

5.1.Agentlik müsabiqə şərtləri, layihələrin tərtibatı, müsabiqəyə tələb olunan sənədlər, Agentliyin elektron xidmətindən istifadə ilə bağlı mütamadi olaraq təlim, məsləhət, müzakirələr və seminar xarakterli tədbirlər keçirir.

5.2.Müsabiqələrlə bağlı məlumatlar yenilənməklə, Agentliyin rəsmi internet səhifəsində və digər açıq informasiya resurslarında yayılır. tərəfindən qəbul edilir.